# Posmodernizim və şəxsiyyət

**Satibə Fərhatlı**
*Azərbaycan Dillər Universitetinin müəllimi*
**E-mail:** ferhatlı.satibe@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. U. Qəzvini,
psixol.ü.f.d., dos. N. Rzayeva

**Açar sözlər:** postmodernizm, postmodern tərəqqi, total kritisizm, əksfəlsəfi diskurs
**Ключевые слова:** постмодернизм, постмодернистский прогресс, общая критика, множественный дискурс
**Key words:** postmodernism, postmodern progress, total Criticism, multiple discourse

Postmodernizm – XX yüzilliyin ikinci yarısında fəlsəfədə, incəsənətdə, ədəbiyyatda bütün formaları, qaydaları, ehkamları inkar edən onları sintetik və qarışıq şəkildə təqdim edən cərəyandır. Müasir dünyada informasiya texnologiyalarının inkişafı nəticəsində daha da inkişaf etmiş, dünyanın aparıcı cərəyanına çevrilmişdir. Bir vaxtlar modernizm klassik, akademik dəyərləri inkar edib yeni bədii formalar yaratdığı kimi, postmodernizm də modernizmi inkar edərək ədəbiyyatda xaos, elementlər müxtəlifliyi yaradır. XX yüzilliyin ikinci yarısından başlayaraq öndər ölkələrdə modernizm böhran keçirmiş, postmodernizmlə əvəzlənmişdir. Günümüzdə də mədəniyyətin və fəlsəfənin çeşidli sahələrində postmodernizm özünü göstərməkdədir. Postmodernizmdə bütün sərhədlər ortalıqdan götürülür. Fəlsəfə, mədəniyyət, incəsənət, memarlıq və başqa anlayışlar bir-birinə qarışır. Artıq bunların ayrı-ayrı cərəyanları deyil, özləri bir-birinə qarışır, sinkretikaya çevrilir. Postmodernizmdə varlığın və şeylərin mahiyyətinə varılmır, hər şeylə dərinliklərinə və incəliklərinə önəm vermədən qavranılır. Dünya olduğu kimi qəbul edilir. Modernizm köhnə baxışları yeniləri ilə dəyişirdisə, postmodernizmdə bu yeniliklərin də dağılması, hər şeyin sadə, bəsit, aydın və sinkretik olması ideyası ortalığa qoyulmuşdur. Modernizm köhnə anlayışları yeniləri ilə dəyişib yeni cərəyanlar yaradırdısa, postmodernizmdə bu məqsəd güdülmür. Burada elitar anlayışlarla kütləvilik eyniləşir, birləşir, onun kateqoriyalarında ortalığa qoyulur. Burada sistemlikdən xaotikliyə, qarışıqlığa doğru yönəlmələr duyulur. Uzun və çətin kateqoriyalar ən sadə anlayışlarda verilir. Elmlər, fəlsəfə, sənətlər və başqa sahələr təkcə peşəkarların deyil, bütün insanlara məxsus olur. Onların arasında sərhədlər silinir, sinkretik anlayışlar yaranır. Burada modernizmdə olduğu kimi, adətlər tam danılmır, onlara qismən dönüş də ola bilər. Plüralizm, ciddilikdən aralanma və dünyaya ironik baxış, həqiqətin olmaması, yazının obyektiv reallığı əks etdirməməsi və yeni reallığı yaratmaq prinsipləri, marginalizm, internet və başqa informasiya məkanlarının yaranması postmodernizmin özəlliklərindəndir [1, 45].

Postmodernizmin yaranması özü ilə bir çox sahədə yeni anlayışlar gətirmişdir. V.Kuritsın XX əsrin sonlarına yaxın mədəniyyətdəki dəyişmə hallarını ya "müasir vəziyyət”, ya da “postmodernizm situasiyası” adlandırır ki, bu da özünü insanın mədəni fəaliyyətinin ən müxtəlif sahələrində büruzə verir (məsələn, linqvistikada (poststrukturalizm), fəlsəfədə (dekonstruktivizm), təsviri sənətdə (konseptualizm), ədəbiyyatda, kinematoqrafda və iqtisadiyyatda reklamın maldan – əmtəədən, nümunədən, örnəkdən daha üstün mövqedə durmasını «postmodern mədəniyyət» kimi nəzərdən keçirir ki, burada ironiyadolu mətnlərarasılıq, eklektiklik və hipotetiklik də erudisiya, parodiya və ədəbi məişət kontekstində

bir-birini tamamlayır.

Sosial psixologiyada yaranan bir çox yeni anlayışlar bu qəbildəndir. Xüsusən postmodern cəmiyyət, postmodern şəxsiyyət anlayışları daha çox aktuallığı ilə diqqəti cəlb edir. Postmodern cəmiyyət - kompyuter, internet, müasir texnologiyalar və buna bənzər vasitələrlə müəyyən edilən cəmiyyət formasıdır. Posmodernizim - əslində şəxsiyyətin, dolayısıyla cəmiyyətin əqli inkişafının nəticəsidir. Şəxsiyyət inkişaf etdikcə postmodernizmin yaranma səbəbləri, onun mahiyyəti daha da inkişaf edir, mürəkkəbləşir. Adekvat olaraq inkişafdan sonrakı inkişaf olan "Postmodern tərəqqi" şəxsiyyətdə yeni bilik, bacarıq, qabiliyyətləri həm formalaşdırır, həmdə hər keçən gün daha yenilərini mənimsəməyi tələb edir.

Məşhur psixoloq E. Fromun assistenti və bir çox əsərlərinin redaktoru olan Rayner Funk "Mən və biz" əsərində postmodern şəxsiyyətinin psixoloji xüsusiyyətlərini açmağa çalışmışdır. R. Funka görə postmodern şəxsiyyətin xarakterinin əsas xüsusiyyəti onun "mən" mərkəzli olmasıdır. Buradakı "Mən"i və "Biz"i xarakter ikiləşməsi kimi qəbul etmək olmaz. Postmodern şəxsiyyət daha çox "mən" deyir, bu mən eqoistik məndən fərqli bir məndir. Bu "mən" özündə eqoistliyi ehtiva eləmir. Postmodern şəxsiyyət sadəcə öz mənini yaşamaq istəyir. Bu "mən" ənənəvi "məndən" fərqli olaraq "bizi" də mənindən ayırmır.

Posmodern dövründə yaşayan şəxsiyyət ("Şəxsiyyət keçmişin şüursuz meyllərinin və gələcəyə can atmalarının indiki ifadə vasitəsidir"[6,123]) modern şəxsiyyətdən fərqlidir. Onun düşüncəsi, hissləri, ətraf aləmə münasibəti yeni xarakter kəsb edir. Postmodern şəxsiyyətin xarakterinin əsas fəlsəfəsi "Mən mən oldum, ölcudə, meyarda mənəm" təşkil edir. O, həyatın mərkəzində özünü görür, ətrafda bas verən hər şeyi özünə görə mənalandırıb, dəyərləndirir. Burada diqqəti çəkən əsas məqam odur ki, bütün təzyiqlərdən, məcburiyyətlərdən, adət - ənənələrdən və s. asılı olmadan qərar verir və fəaliyyət göstərir. İlk baxışda Postmodern şəxsiyyət sadaladıgımız xüsusiyyətləri ilə - "nasist təfəkkürlü adam" təəssüratını doğura bilər. Lakin bu qətiyyən belə deyil .

Postmodern şəxsiyyətin təfəkküründə "Mən, mən oldum meyardakı mənəm"lə yanaşı "Sən, sən oldun ölçüdə, meyarda sənsən" yanaşması ön planda durur. Postmodern şəxsiyyət həm fiziki, həm də mənəvi cəhətdən azaddır, müstəqildir. Ancaq bu müstəqilliklə yanaşı, o həm də onu əhatə edən postmodern cəmiyyətlə "bağlıdır". Burada bir məqama diqqətlə yanaşmaq lazımdır: O, cəmiyyətlə "bağlıdır", ondan "asılı" deyil. Məhz bu xüsusiyyət postmodern şəxsiyyətin əsas dəyəridir. Postmodern "mən"i "aktiv" və "passiv" olaraq 2 qrupa ayırmaq olar. Burada "aktiv" olan postmodern mədəniyyəti yaradan, inkişaf etdirən tərəfdir, "passiv" isə bu mədəniyyəti "istehlak" edən yaşayan tərəfdir. Məsələn, hər hansı Şou proqramın aparıcısı, yaradıcı heyəti aktiv, tamaşaçılar isə passiv iştirakçıdır. Əlbətdə "aktivlik" və "passivliyin" dəqiq sərhədlərini qətiyyətlə müəyyən etmək, düzgün deyildir, çünki zaman zaman bu iki tərəf yerlərini dəyisə bilir. [1,səh. 45]

İqtisadiyyatın və cəmiyyətin sosial-iqtisadi strukturunun inkişafı müvafiq olaraq şəxsiyyətin psixi xassələrinə (xarakter, qabiliyyət, sərvət meylləri) güclü təsir göstərməkdədir. Bu baxımdan postmodern şəxsiyyətin təhlili göstərir ki, o, sosial–iqtisadi inkişafın nəticəsidir. Məhz postmodern şəxsiyyətin "mən"inin ön planda gəlməsinə, "mən mərkəzli" olmasına səbəb bazar iqtisadiyyatının inkişafı, ETT–nin inanılmayacaq səviyyədə inkişafı, təlqinin gücü və insanın özü özünü təlqin edə bilmə bacarığıdır.

Bazar iqtisadiyyatı əlbəttə ənənəvi iqtisadi quruluşlardan fərqlidir. Artıq insanların mövcud ehtiyacları ödənilməklə kifayətlənilmir, onlara yeni – yeni ehtiyaclar "istehsal" olunur. Artıq bazarda yalnız məhsullar deyil, "yaşayış" da satıla bilir. Postmodern şəxsiyyət insanı heyran edən təbiətə, ölkələrə və s. yerlərə turizim istirahətinə can atır, rahatlığa və

sərbəstliyə, bahalı maşına və evə sahib ola bilir. Hətta postmodern şəxsiyyət olma arzusu da "ehtiyaca" çevrilə bilir. Bu işdə onlara yeni peşə sahibləri - psixoterapevtlər, stilistlər, imicmeykerlər və s. kömək edirlər.

Elmi Texniki Tərəqqinin nəticəsi olaraq artıq zaman və məkan qavrayışı əhəmiyyətini itirmis hesab oluna bilər. İstənilən vaxt istədiyimiz yerə əlimiz çatır və hətta onu uzaqdan belə idarə edə bilirik. ETT-nin inkişafı ilə obyektiv aləmi yenidən və başqa formada və arzuladığımız kimi yarada bilərik. Artıq başqaları biz istəsək həyatımza girə bilirlər, istəmədiklərimizi məhdudlaşdıra bilirik. Postmodern şəxsiyyət bir tərəfdən "mən" mərkəzli yaşasa da, digər tərəfdən də həddindən artıq təlqinə qapılandır. Bazar iqtisadiyyatı artıq özünün təlqini üsul və vasitələrini yaradır və tətbiq edir. Məsələn, bu gün supermarketlər hərəsi özünəməxsus rəngarəngliyi ilə müştərilərin diqqətini cəlb etməyə çalışır. Bəzi ticarət mərkəzlərində, dükanlarda isə yüksək templi musiqilərin şahidi oluruq. Maraqlı xüsusiyyətlərdən biri də budur ki, postmodern şəxsiyyət - "mənim həyatım üçün ən yaxşısını mən bilərəm" düşüncəsində olsalar da psixoloqlara, psixoterapevtlərə də müraciət etməkdən çəkinmirlər. Doğru yolu seçməkdə onlardan kömək almaq məqsədilə böyük maddi vəsait də xərcləyə bilirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, Postmodern şəxsiyyətin əsas məqsədi qaydalardan, məhdudiyyətlərdən azad, öz şəxsi dunyasını qurmaqdır. O, öz "qurduğu" dünyasından zövq alır və onun bu dünyasının çox hissəsini yeni texnolgiyalar - mobil telefon, kompyuter, televizor və s. təşkil edir. Bu vəziyyət əslində şəxsiyyətin "özü" ilə "real özü" arasına səd çəkir, onları bir-birindən uzaqlaşdırır. Məsələn, küçədə futbol oynaya bilməyən uşaq virtual futbol məkanında bütün rəqiblərini geridə qoya bilir. Yaxud da öz təbii görünüşü ilə başqaları tərəfindən bəyənilmədiyini düşünən bir qadın plastik cərrahiyə vasitəsilə özünü dəyişdirə Digər bir misal, Sosial fobiyası olan, özünü cəmiyyətdə ifadə etməkdə çətinlik çəkən bir insan psixoloqların köməyi ilə bu probleminin həll edə bilər. Psixoanaliz sağlam şəxsiyyəti "yaradıcı" və "sevə bilən" kimi ifadə edir. Burada yaradıcı dedikdə psixi proseslər başa düşülür: təxəyyülün inkişafı, xəyal qura bilmə; təfəkkürün inkişafı, imic formalaşdırma; kədərə, çarəsizliyə dözüm və s. burada yaradıcılığın əsas prinsipləridir.

Postmodern şəxsiyyət son dərəcə güclü bir dünya ilə üz-üzədir. Dünyaya bu qorxunc gücü həm də Elmi Texniki Tərəqqi verir. Hamımız yaxşı bilirik ki, əlində ETT-nin imkanları olan, təsadüfən iki psixopatın qərarıyla dünyamız alt–üst də ola bilər. Ən kiçik insani hiss olan "həsrət" hissi insanlar bir biridən uzaqda qalanda sevgiləri daha da çulğalaşdırır, daha da pərvazlandırır. Lakin postmodernizim dövründə mobil telefonlar, sosial şəbəkələrlə vasitəli ünsiyyətin həyata keçirilməsi həsrət hissinin də yox olmasına gətirib çıxardığının çoxlarımız fərqində deyilik. Bu gün alternativlərlə dolu postmodern cəmiyyətdə uşağın cinsinin əvvəlcədən məlum olması ilə əlaqədar abortlar, insanların klonlanması, aftanaziya və digər şəxsiyyətin həyatı vacib hesab etdikləri seçimləri maddi və məntiqi baxımdan doğru qəbul edilərək – etik hesab edilir. Mənəvi baxımdan isə bunlar təhlil edilməsi çətin və yolverilməz hesab edilir [1, 47].

Postmodernizm bu və ya digər dünyagörüşü paradiqmalarını müəyyənləşdirən real hadisə və faktlarla, məlumatlarla deyil, artıq, bilinənlərin işarələnənlərin qalığı ilə, dərk olunmayan, müəyyən olunmayanlarla maraqlanır. Buna görə də rasional düşüncə istiqamətində gnesoloji fəaliyyətin mərkəzi olan dərk edən subyekt "əriyib" "dünyanın siması"nı açır. Bu zaman gerçəklik, dünya vahid sonsuz mətn kimi qəbul edilir. Bu sonsuz mətn özündə metaforalar, illüziyalar, sitatlar, üzərində oynanılan mənalar saxlayır. Dəyərlər sisteminin, ümumiyyətlə heç bir dəyərləndirmənin olmaması, ədəbi-fəlsəfi marginallıq, prinsip səviyyəsinə qaldırılmış

deskriptivlik postmodernizmin klassik fəlsəfi dəyərləndirmələrdən hər hansı bir idraki sistem yaratma cəhdindən imtinanı təsdiq edir. O, müxtəlif epistemlərdə, kontekstual tranformasiyalarda tədqiq edilənlərin, öyrənilənlərin sonsuz metamorfozunu yaradır, anlamaq istədiyi predmetə və ən müxtəlif elmi-bədii düşüncə sistemlərinə münasibətdə tolerantlıq və plüralizm apofeozuna gətirib çıxarır.

Yaradıcılığa "bərpaetmə", "yenidən istehsal etmə" kimi özünəməxsus şərhlə yanaşma onun rasional idrakdan şüurlu şəkildə imtina etməsinə və artefaktları manipulyasiya etməyə, özündən əvvəl müxtəlif dövr və üslublarda yaradılmış əsərlərin üzərində özünəxas texnika və üsulla oynamasına yönəldir. Postmodernizmin mövcudluq və inkişaf əsaslarından olan plüralizm loqomərkəzçi baxışların əksinə olaraq hər cür meyarlılıq prinsipinin əhəmiyyətinin itirilməsi ilə gerçəkləşir. Özündən əvvəlki elm – qeyri elm, bilik – qeyri bilik, mədəniyyət – qeyri mədəniyyət, sənət – qeyri sənət fərqləndirmələrini rədd edərək, hansı prinsip, metod, meyara əsaslanmağından asılı olmayaraq hər cür fikir və yaradıcılıq fəaliyyətinin varlığına haqq qazandırır, onlara eyni məsafədən yanaşır. Ümumiyyətlə, postmodernizm özünəqədərki ədəbi-fəlsəfi estetik düşüncənin əsas prinsiplərindən olan "binar münasibətləri", dialektikanın təməlində duran ziddiyyət, eyniyyət qanunauyğunluqlarını inkar edir, belə yanaşmanın həqiqiliyini isbat edəcək əsasların olmadığını, hələ xaosun hökm sürdüyü böhran situasiyalarında, açıq dinamik sistemlərdə ənənəvi təfəkkür anlayışlarının yararsız olduğunu iddia edir.

Bunun müqabilində postmodernizm ədəbiyyat və fəlsəfəni bir sonsuz mətn kimi və ya danışıq aktı kimi anladan "total kritisizm", "əksfəlsəfi diskurs" anlayışlarını meydana qoyur və iddia edir ki, gerçəkliyi "binar münasibətlər", ziddiyyətlərin qarşılıqlı əlaqəsi çərçivəsində öyrənmək istəyən dil heç bir zaman dəqiq təcəssüm və obyektiv nəticə kimi çıxış edə bilməz. Bu baxımdan obyektivlik subyektivliklə, vahidlik – sonsuz yenidən istehsal etmə ilə, yeninin yaradılması kimi həqiqi yaradıcılıq imkanı artıq kəşf edilmişin kəşfi şəklindəki yaradıcılıqla, sonsuz sitatlar, kompilyasiya, kollaj fəaliyyəti ilə kinayənin apologiyasına aparan əvvəlki yaradılmışlarla oyunla əvəz olunur. Postmodernizm bütün mənaları mühakimə edir. Tarixi artıq yaşanmış, bitmiş, tükənmiş sayır. O, dünyagörüşün paradiqmalarını müəyyən edən, dünyanın hər hansı bir elmi, fəlsəfi, bədii mənzərəsinin əsasında duran "olmuş"lardan, "verilənlər"dən çox, dərkedilməyənlərlə, ifadə edilə bilməyənlərlə, müəyyən edilə bilməyənlərlə maraqlanır. Ona görə də postmodernist baxışda idrak fəaliyyətinin mərkəzi olan dərk edən subyekt anlayışı əriyir, yox olur, onun yerinə "dünyanın siması" açılır. Bütün gerçəklik vahid sonsuz mətn kimi çıxış edir.

Bu günə qədər dünyanın hansı formada olursa olsun, elmi, fəlsəfi, bədii, estetik, dini və s. dərkinin nəticəsi yazı formasındadır. Dünya idrak obyekti kimi yanaşıldığına görə, dünyaya bütün metaforaları, illüziyaları, sitatları, düşüncələri, üzərində oynanılan mənaları özündə saxlayan mətn kimi baxılır. Özünü dərketmə də mədəniyyət adlandırdığımız bir-biri ilə qarşılıqlı əlaqədə olan "mətnlər məcmusu"dur. Ümumiyyətlə, hər şey mətnin içində mövcuddur, postmodernizmin əsas yaradıcı simalarından biri olan Derridanın dediyi kimi, "heç nə mətndən kənarda mövcud deyil" [4, 58].

Postmodernizm nəinki müasir mədəniyyətin çoxşaxəli strukturunu əks etdirir, həm də bu, rəngarəngliyin müsbət mədəni hadisə olduğunu göstərməkdədir. Buna görə də postmodernizmi insan fəaliyyətinin elə bir spontan şəkli kimi götürmək olar ki, həyat məkanın formalaşmasına tuşlanmış xüsusi bir dünyaya baxış tipi yaratmağa meyillidir. Eyni zamanda bu, XX əsrin ortalarından sonra yaranmış mərhələnin fəlsəfi paradiqması kimi də götürülə bilər. Postmodernizm yeni mədəniyyət situasiyasının yaranmasını əks etdirsə də,

onun hələ də aydın paradiqmatik təyini ortaya qoyulmamışdır. Eyni zamanda postmodernizm real mövcud olan obyektin məntiq anlayışı kimi də dərk olunmamalıdır.

Azərbaycan nəsrində "Kitabi-Dədə Qorqud" dastanlarının postmodernist roman "yozumu" yazıçı, şair, prof. K. Abdullanın yaradıcılığı ilə bağlıdır. Ümumiyyətlə, ədibin "Dədə Qorqud" yaradıcılığı uzun illərin məhsulu olub, həm bədii, həm də elmi əsərləri əhatə edir. "Yarımçıq əlyazma" romanına diqqət yetirək. Əsər postmodernizm üslubunda qələmə alınmışdır. Əsərdəki obrazlar tamam fərqli və dəyişik şəkildə təqdim olunur. İç oğuzla Dış oğuz arasındakı münasibətlər, Qazan xanın fəaliyyəti, "Casus"ların oğuz elinə nifaq salması yeni üslubda oxucuların ixtiyarına buraxılır. Kamal Abdulla Dədə Qorqudu, Salur Qazanı, Beyrəyi və başqa obrazları postmodernizm ruhuna uyğun şəkildə canlandırır. Oğuz eli tayfalarının əməllərini özündə xroniki ardıcıllıqla əks etdirən Türk epopeyası olan orta əsr Kitabi Dədə Qorqudunu özünün çıxış nöqtəsi kimi qəbul edən prof. Kamal Abdulla burada "Dədə Qorqud" hekayətlərinin ilk və yarımçıq layihəsini icad edib. Bu kitab Dədə Qorqud adlı bir Ozan tərəfindən Oğuz elindəki xainlərin iç üzünün ifşa olunması ilə bağlı aparılan tədqiqatın hesabatı xarakterini daşıyır. Bu isə, öz növbəsində, XVI əsrdə mövcud olan Səfəvilər dövlətinin banisi və hökmdar şairi Şah İsmayıl Xətaiyə aid başqa bir hekayə ilə sıx əlaqədardır. Bu iki istiqaməti özündə birləşdirən "Yarımçıq əlyazma" romanında oxucunun diqqətini cəlb edən Dədə Qorqud və Şah İsmayıl Xətai obrazlarının reallıqla uzlaşan məqamlarıdır. Əsərlə bağlı fikirlərimizi belə yekunlaşdıra bilərik. Bu gün bütün dünyada mənəvi köklərə qayıdış prosesi gedir. Artıq millətindən asılı olmayaraq hamı dərk edir ki, mənəvi əsaslara söykənməyən cəmiyyət gec-tez iflasa uğrayır. Bunu dərk etdikləri üçün hər kəs soy-kökünü öyrənmək, araşdırmaq, həyata tətbiq etməklə mənəvi çürümənin, mənəvi tənəzzülün qarşısını almağa çalışır. Biz də bəşəriyyətin bir parçası olaraq bu mütərəqqi prosesdən kənarda qala bilmərik [3, 25].

"Postmodernizmin bir çox kriteriyaları var. Onlardan biri də mətni dəyişmək, sözü fərqli təqdim etməkdir. Mətnlə oynamaq kriteriyasında varam. Amma postmodernizmin mentalitetimizə zidd olan kriteriyalarında yoxam" – deyə, K. Abdulla vurğulayıb [3, 25].

**Məqalənin aktuallığı.** Postmodernizm – XX yüzilliyin ikinci yarısında fəlsəfədə, incəsənətdə, ədəbiyyatda bütün formaları, qaydaları, ehkamları inkar edən onları sintetik və qarışıq şəkildə təqdim edən cərəyandır. Müasir dünyada informasiya texnologiyalarının inkişafı nəticəsində daha da inkişaf etmiş, dünyanın aparıcı cərəyanına çevrilmişdir. Postmodernizm nəinki müasir mədəniyyətin çoxşaxəli strukturunu əks etdirir, həm də bu, rəngarəngliyin müsbət mədəni hadisə olduğunu göstərməkdədir. Bu baxımdan tədqiqatın predmeti şəxsiyyət psixologiyasında aktual problemlərdəndir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə fəlsəfə və psixologiyada mühüm kateqoriya hesab olunan postmodernizm nəzərdən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələrindən tələbələrin müstəqil işinin təşkil edilməsində, mühazirələrin və xüsusi kursların işlənib hazırlanmasında istifadə oluna bilər. Bununla yanaşı tədqiqatın nəticələrindən şəxsiyyət psixologiyası seçmə fənlərin tədrisində faydalanmaq olar.

## Ədəbiyyat

1. Aydın Əlizadə. Modernizm, postmodernizm və müasir Azərbaycan // Dövlət və din, 2001, № 5.
2. Kamal Abdulla. Gizli Dədə Qorqud. Bakı: Yazıçı, 1991.

3. Kamal Abdulla. Mifdən Yazıya və yaxud Gizli Dədə Qorqud. Bakı: Mütərcim, 2009.
4. Qorxmaz Quliyev. "Postmodernizm". "E-dalğa". Şəbəkə Dərgisi. II sayı.
5. Nərmin Kamal. Umberto Eko və Postmodernizm fəlsəfəsi. Bakı: Qanun, 2008.
6. Seyidov S.İ. Yaradıcılığın fenomenologiyası. Bakı, 2013.

**С. Фархатлы**

## Постмодернизм и личность

## Резюме

Все границы в постмодернизме берутся централизованно. Философия, культура, искусство, архитектура и другие вещи переплетаются. Вместо своих отдельных течений они смешиваются и становятся циничными. Постмодернизм не зависит от сущности вещей и вещей, но воспринимается без учета его глубины и тонкости. Мир воспринимается как есть. В то время как модернизм заменил старые видения новыми, идея разрушения этих нововведений в постмодернизме проста, проста, понятна и цинична.

**S. Farhatlı**

## Postmodernism and personality

## Summary

All borders in postmodernism are taken centrally. Philosophy, culture, art, architecture and other things intertwine. Instead of their separate currents, they mix themselves together and become cynical. Postmodernism does not depend on the essence of things and things, but is perceived without regard for its depth and subtlety. The world is perceived as it is. While modernism has replaced old visions with new ones, the idea of breaking these innovations in postmodernism is simple, simple, clear, and cynical.

**Redaksiyaya daxil olub:** 16.01.2017